# Ermənistan İlham Əliyevin yaratdığı reallıqları qəbul edir

**"ADA-da keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" beynəlxalq forumunda Prezident İlham Əliyevin çıxışı, iştirakçıların suallarına verdiyi cavablar çoxşaxəli və dərin məzmunludur. Dövlət başçısı ölkəmizin və Cənubi Qafqazın gələcəyi ilə bağlı olduqca mühüm məsələlərə toxunub. Onların arasında Ermənistan tərəfindən işğal edilmiş dörd kəndimizin danışıqlar yolu ilə geri qaytarılması, demarkasiya prosesinin başlanılması xüsusi yer tutur".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Musa Qasımlı deyib. Deputat bildirib ki, Qazaxın 4 kəndinin qaytarılması sadəcə ərazilərimizin vətənə qovuşdurulması anlamını daşımır, mövzu daha dərindir: "Dövlət başçısı çıxışı zamanı vurğulayıb ki, sərhəd delimitasiyası məsələsində Azərbaycan və Ermənistan olduqca konstruktiv davranış nümayiş etdirirlər. "Görünənlər bunun bir parçasıdır - bu, bir nəticədir. Lakin bu nəticə müntəzəm təmaslardan və müsbət dinamikadan qaynaqlanır" deyən Prezidentimiz bu işi konsolidasiya etməyin və irəliləməyin vacibliyini də vurğulayıb".

Musa Qasımlının sözlərinə görə, kəndlərimizin bir güllə belə atılmadan geri qaytarılması Azərbaycan Prezidentinin yürütdüyü prinsipial siyasətin nəticəsidir: "Bu həm də Ermənistan rəhbərliyinin reallığı qəbul etməsidir. Görünür, Azərbaycanın bütün qonşuları ilə, o cümlədən Ermənistanla dinc və mehriban münasibətlərdə yaşamaq istəyi müsbət nəticə verir. Rəsmi İrəvan artıq başa düşür ki, vaxtilə işğal edilmiş kəndlər sahiblərinə geri qaytarılmalıdır. Ermənistan rəhbərliyi Azərbaycanla indiyə qədər yürüdülən siyasətin yanlış olduğunu anlayır, normal münasibətlər qurmaq istəyir. Lakin Ermənistan daxilində buna müqavimət göstərən revanşist qüvvələr mövcuddur".

Deputat söyləyib k, Ermənistanın Azərbaycanla mehriban qonşuluq münasibəti yürütməsi əməkdaşlığa gətirəcək və erməni xalqı bundan faydalanacaq: "Ermənilər regiona sonradan gəlmə olsalar da, biz mehriban qonşulara çevrilməliyik. Azərbaycan xalqı müharibə istəmir, Ermənistandan qat-qat güclü olsaq da, bizə yeni müharibə, yeni itkilər lazım deyil. Qafqazın gələcəyi Qafqaz dövlətlərinin əlində, qonşuların mehriban dostluq münasibətlərində olmalıdır. Kənar qüvvələrin regiona müdaxiləsinə icazə verilməməlidir".

Musa Qasımlı Prezident İlham Əliyevin forumdakı nitqində diqqətçəkən digər məsələ - Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyası və demarkasiyası barədə də fikir bildirib. Qeyd edib ki, bu hadisə müstəsna əhəmiyyət daşıyır: "Dövlət başçısının da dediyi kimi, bu məsələlərin görünən və pərdəarxası tərəfləri var. Görünən tərəfləri ilə ictimaiyyət əvvəlcədən xəbərdar olur, pərdəarxası tərəflər isə onun nəticələrində özünü göstərir. Ümumiyyətlə, sərhədlərin delimitasiyası elə ən başından Azərbaycanın istəyi olub. Lakin indi olduğu kimi, o vaxt da buna mane olan qüvvələr olub. Fikrimcə, sərhədlərin delimitasiyası və demarkasiyası prosesini digər dövlətlər topa tutmamalı, onu baltalamamalı, öz maraqlarını güdməməlidirlər. Bu proses Ermənistanla sülh çərçivəsində davam etdirilməlidir".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 26 aprel, № 82.- S.9.